

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 121 (23.283)

*4 iyul 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də “Baker Hughes, a GE company” şirkətinin sədri, prezidenti və baş icraçı direktoru Lorenzo Simonellini qəbul edib.

Qəbula görə minnətdarlığını bildirən Lorenzo Simonelli Prezident İlham Əliyevlə görüşdən məmnun olduğunu vurğulayıb. O, Azərbaycanda böyük inkişaf proseslərinin şahidi olduğunu deyib və ölkəmizdə neft və qaz sənayesi, turizm, idman və digər sahələrdə əldə olunan nailiyyətlərin önəmini qeyd edib. Lorenzo Simonelli Azərbaycanda 1840-cı illərdə sənaye üsulu ilə ilk neft quyusunun qazıldığını vurğulayaraq təmsil etdiyi şirkətin Azərbaycanın neft və qaz sənayesinin inkişafına töhfə verməsindən məmnunluq hissi keçirdiklərini deyib.

Dövlətimizin başçısı “Baker Hughes, a GE company” şirkətinin Azərbaycanla neftayırma və digər sahələrdə əməkdaşlığının uğurlu nəticələrinin ölkəmizin enerji sektorunun modernləşməsinə töhfə verməsini yüksək qiymətləndirib. Azərbaycanda əldə olunan nailiyyətlərə toxunan Prezident İlham Əliyev ölkəmizin enerji, sənaye və digər sahələrdə böyük inkişaf əldə etməsinin əhəmiyyətini qeyd edib. Dövlətimizin başçısı Lorenzo Simonellinin Azərbaycana səfərinin səmərəli keçəcəyinə əminliyini bildirib.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında qarşıya qoyulan vəzifələrin müzakirəsi ilə bağlı Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyində kollegiya iclası keçirilib. İclasda Mədəniyyət naziri Natavan Qədimova çıxış edərək bildirib ki, ötən yarım il ərzində xalqımızın milli dəyərlərinin yaşadılması, qorunması və təbliğ edilməsi, görkəmli şəxsiyyətlərin yubileylərinin və əlamətdar günlərin qeyd olunması diqqətdə saxlanılıb. İlin birinci yarısında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96 illiyi, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyi, Milli Qurtuluş Günü, filosof-şair İmadəddin Nəsiminin 650, görkəmli ədib Cəlil Məmmədquluzadənin 150, Azərbaycan mədəniyyətinin dəyərli simalarından olan Ərtoğrol Cavidin 100 illik yubileyləri ilə bağlı çoxsaylı silsilə tədbirlər keçirilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının, bununla əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı nazirlikdə iş aparılıb, ekspert qrupu yaradılıb. Aprelin 19-da nazirlik aparatının, nazirliyə tabe olan müəssisələrin rəhbərlərinin və ekspert qrupu üzvlərinin iştirakı ilə görüş keçirilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mədəniyyət, Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirlikləri tərəfindən təsdiq edilmiş qrafikə əsasən hesabat dövründə muxtar respublikanın müxtəlif muzeylərindən ümumtəhsil məktəblərinin şagirdləri və Naxçıvan Dövlət Universitetinin tələbələri üçün, ümumilikdə, 12 distant dərs keçilib.

Nazir deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar Şahbuz, Babək rayonlarında və Naxçıvan şəhərində olmaqla, 3 Xalq yaradıcılığı günü tədbiri keçirilib.

Naxçıvan Musiqi Kollecinin tələbəsi, nağara ifaçısı Nəcəf Hacılı mayın 2-dən 5-dək Latviyanın paytaxtı Riqa və İsveçin paytaxtı Stokholmda keçirilən I Beynəlxalq İncəsənət festival-müsabiqəsində iştirak edərək birinci yerə layiq görülüb, Stokholmda keçirilən möhtəşəm Qala konsertində uğurla çıxış edib.

Cari ildə də muxtar respublikada ənənəvi xalq teatrları festivalı keçirilib. Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı Bakı şəhərində keçirilən III Respublika Xalq Teatrları Festivalında II yerə layiq görülüb.

Hesabat dövründə nazirliyin sisteminə daxil olan müəssisə və təşkilatlarda əmək və iş intizamı ilə bağlı yoxlamalar aparılıb, aşkar olunan nöqsanların aradan qaldırılması istiqamətində müvafiq tövsiyə və tapşırıqlar verilib. Dövr ərzində 4 kollegiya iclası keçirilib, 4 məsələ müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

Məruzə ətrafında müzakirələr olub.

* * *

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən iclasda komitənin sədri Ramilə Seyidova məruzə ilə çıxış edərək bildirib ki, komitə cari ildə nəzərdə tutulmuş vəzifələrin həlli istiqamətində ardıcıl və səmərəli fəaliyyət göstərib. Belə ki, müvafiq statistik məlumatlar alınaraq toplanılıb, məlumat bazası yenilənib, uzunömürlü 323 ailə haqqında məlumatlar yaradılan məlumat bazasına əlavə edilib.

Hesabat dövründə aztəminatlı ailənin üzvü və sağlamlıq imkanları məhdud olan 589 qadınla müvafiq söhbətlər aparılıb, 25 qadının peşə kurslarına cəlb olunması üçün məlumatlar müvafiq orqanlara göndərilib. Özünüməşğulluğun təmin edilməsi məqsədilə sosial qayğıya xüsusi ehtiyacı olan şəxslərin əl işlərinin satışına köməklik göstərilib, 26 qadının 150 əl işi satılıb. Bu dövr ərzində, ümumilikdə, 7 aztəminatlı ailəyə baş çəkilib. Muxtar respublikanın 6 kənd mərkəzində 347 qadının iştirakı ilə “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda tədbir keçirilib.



Naxçıvan Muxtar Respublikasında “Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi” layihəsinin həyata keçirilməsi ilə bağlı açılış konfransı olub. May ayında 289 qadının iştirakı ilə “Maliyyə savadlılığı” üzrə “Gələcəyini planlaşdır” təlimləri keçirilib. İyun ayında “Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi” adlı layihə çərçivəsində “Öz biznesinə başla və onu inkişaf etdir” təlimlərində 66 qadının iştirakı ilə 4 təlim keçirilib.

Qeyd edilib ki, Naxçıvan Biznes Mərkəzində “Naxçıvan qadınlarının sahibkarlıq fəaliyyəti: əzmkarlıqdan nailiyyətə” mövzusunda 145 qadının iştirakı ilə tədbir təşkil olunub.

2019-cu ilin 6 ayı ərzində valideyn himayəsindən məhrum olmuş 9 uşağın uçotu aparılıb. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 26 min 866 uşaq haqqında fərdi məlumatlar daxil edilib. Aztəminatlı, qaçqın və məcburi köçkün, hər iki valideynini itirmiş, valideyn himayəsindən məhrum olmuş və sağlamlıq imkanları məhdud uşaqların muxtar respublikanın istirahət guşələrinə, muzeylərə və tarixi abidələrə ekskursiyası təşkil edilib. Bəhs olunan dövr ərzində komitə tərəfindən təşkil edilən müsabiqələrdə və bayram günlərində bütün kateqoriyadan olan uşaqlara 76 diplom, 325 fəxri fərman, 644 hədiyyə verilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən kollegiya iclasında komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, komissiya tərəfindən 2019-cu ilin 6 ayı ərzində dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilib, 4 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 5 qərarı ləğv edilib.*



Qeyd olunub ki, ötən dövrdə müsabiqəyə çıxarılan 305 vakant vəzifənin tutulması üçün 583 namizəd sənəd təqdim edib. Uğur qazanmış 106 namizəddən 100-nün sənədləri təyin olunmaq üçün dövlət orqanlarına göndərilib. Onlardan 99-u iddia etdikləri vəzifələrə təyin olunub, 1 namizəd təklif olunan vəzifədən imtina edib, müvafiq keçid balını toplamış 6 namizəd ehtiyat kadr siyahısına salınıb.

2019-cu ilin ilk 6 ayında muxtar respublikanın Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsində xidmətə, habelə Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün keçirilən test imtahanlarında sənəd təqdim edən 252 namizəddən 240-ı iştirak edib, 113 nəfər müvafiq keçid balını toplayıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən dövlət ümumi təhsil müəssisələrində və şəhmat məktəblərində şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası üzrə test imtahanları keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası diqqətdə saxlanılıb, komissiya tərəfindən iki startap layihəsinin – “Vətəndaşların dövlət qulluğuna qəbulunun stimullaşdırılması” layihəsinin və *“DQMK.NMR.AZ”* mobil tətbiqinin təqdimat mərasimləri keçirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən iclasda limanın direktoru Mənşur Gülməmmədli çıxış edərək bildirib ki, hava limanında vətəndaşlara xidmətin nümunəvi təşkili məqsədilə uçuşların və aviasiya təhlükəsizliyinin, yerüstü vasitələrin, xidmətlərin beynəlxalq standartlara, o cümlədən tövsiyə olunan beynəlxalq təcrübəyə uyğunlaşdırılması prosesi tənzimlənib. Enmə, işıq-siqnal sistemləri, yan təhlükəsizlik, son tormozlama zolaqları, meteoroloji avadanlıqlar və sair qurğularla təmin olunması nəzərdə tutulan uzunluğu 3300 metr, eni 45 metr olan uçuş-enmə zolağının 2019-cu ilin ikinci yarısında təhvil verilməsi nəzərdə tutulur.

Vurğulanıb ki, aeroportun maddi-texniki bazasının gücləndirilməsi, aerovağzalın fəaliyyətinin müasir səviyyəyə çatdırılması istiqamətində görülən işlər ardıcıl və sistemli xarakter alıb. Sərnişin və yükdaşımalarda yüksək keyfiyyətin əldə olunması, habelə səmərəliliyin artırılması, mədəni xidmət bütün personalın diqqət mərkəzində saxlanılıb.

Qeyd olunub ki, hava gəmilərində xidmətin səviyyəsinin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində xüsusi avtonəqliyyat xidmətinə ən müasir maşın-



mexanizmlərin alınıb istismara verilməsi prosesi bu ilin ilk yarısında da davam etdirilib. Sərnişinlərin qeydiyyat prosesinin sürətləndirilməsi üçün “SİTA qeydiyyat proqramı” daha müasir beynəlxalq standartlara cavab verən “Amadeus proqramı” ilə əvəz olunub.

Diqqətə çatdırılıb ki, 2019-cu ilin ilk yarısında muxtar respublika əhalisinə xidmətin yaxşılaşdırılması məqsədilə Şahbuz şəhərində müasir aviakassa binası istifadəyə verilib. Binada ən yeni texnoloji avadanlıqlar quraşdırılıb, qabaqcıl idarəetmə sistemi yaradılıb.

Mənşur Gülməmmədli göstərilən dövlət qayğısına görə kollektiv adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonda məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## 2019-cu ilin birinci yarım ilinin yekunları müzakirə edilib

***Ordubad Rayon İcra Hakimiyyətində 2019-cu ilin birinci yarım ilinin yekunlarına həsr edilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, Ordubad rayonu da 2019-cu ilin birinci yarısını yüksək göstəricilərlə başa vurub. Belə ki, cari ilin yanvar-may aylarında 3308 min manatlıq, yaxud 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox sənaye məhsulu istehsal olunub.

Bəhs edilən dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 18529,9 min manat və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 2,1 faiz artaraq 17977,3 min manat təşkil edib.



Məruzəçi qeyd edib ki, hesabat dövründə Vənənd kəndində yeni tam orta və musiqi məktəblərinin, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, Ordubad şəhərində yeni yaşayış binasının, Anaqut kəndində məscid binasının tikintisi davam etdirilib.

Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası və Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binaları əsaslı şəkildə təmir edilərək istifadəyə verilib.

Hazırda Ordubad şəhərində içməli su və kanalizasiya sistemlərinin, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Kənddaxili yollar cari təmir olunur, kommunikasiya xətləri yenilənir. Ordubad-Culfa magistral yolu əsaslı şəkildə yenidən qurulur.

Məruzəçi kənd təsərrüfatı sahəsində görülən işlərdən də söhbət açaraq vurğulayıb ki, son illərdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə rayona ümumi dəyəri 985 min 442 manat olan 151 texnika gətirilib. 2019-cu ilin müvafiq dövründə lizinq yolu ilə vətəndaşlara 13 texnika satılıb.

Rayonda 1 iyun 2019-cu il tarixə 1998 hektar sahədə yazlıq bitkilər əkilib. Əkin sahəsinin 361 hektarını dənli və dənli-paxlalılar (qarğıdalısız), 578 hektarını kartof, 676 hektarını tərəvəz, 42 hektarını ərzaq üçün bostan bitkiləri, 274 hektarını cari ilin çoxillik otları, 67 hektarını birillik otlar təşkil edir.

Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi tərəfindən 57,5 kilometr məsafədə kanal və arxlar lildən təmizlənib, 12,4 kilometr məsafədə içməli su xəttində təmir işləri aparılıb, 350 metr kaptaj təmir olunub, 100 metr uzunluğunda təzyiqli boru xəttində təmir işləri həyata keçirilib.

Hər il olduğu kimi, 2019-cu ilin birinci yarısında da yaşıllaşdırma tədbirləri yüksək səviyyədə təşkil olunub, ümumilikdə, 16860 ting əkilib, 3 hektar sahədə yeni bağ salınıb, 14 hektar sahədə bərpa işləri aparılıb.

Müşavirədə rayonun bütün idarə, müəssisə və təşkilatları tərəfindən 2019-cu ilin birinci yarısında görülmüş işlərdən ətraflı söhbət açılıb.

Məruzə ətrafında müzakirələr aparılıb.

**Abbas SEYİD**


*Xal-xal kənd tam orta məktəbi (dünən)*

## Naxçıvan dünən

## Kəndimizin problemləri

Bu barədə həmişə demişik, şikayət etmişik, aid təşkilatlara yazmışıq. Lakin mövcud problemlər öz həllini illərboyu tapmayıb. İndi kənd camaatı yenə də narazıdır. Muxtar respublika blokada şəraitində yaşayır. Bunu yaxşı başa düşürük. Lakin kəndimizdə informasiya blokadasında qalmağımız bizi çox narahat edir. Ən əvvəl onu deyim ki, radio xətləri nasazdır. Buna görə də həyatımızda baş verən hadisələrdən xəbər tuta bilmirik.

Kəndimizdə cəmi bir ədəd elektrik transformatoru var. Bu isə ilbəil əhalinin artan tələbatını ödəmir. İşıqlar tez-tez sönür, televiziya verilişlərinə də baxa bilmirik. Saatlarla, hətta günlərlə gecələr qaranlıqda qalırıq. Naxçıvandan Xal-xal kəndinə avtobus marşrutu açılması vaxtı çoxdan çatmışdır. Vayxır və Xal-xal kəndlərinə cəmi bir avtobus marşrutu işləyir. Bu isə iki kəndin əhalisinin tələbatını ödəmir. Onu da deyim ki, nəzərdə tutulmuş marşrut on il əvvəlki qayda ilə işləyir. Kəndimizin camaatı bu məsələnin həllini gözləyir. Görəsən, camaatın haqlı tələbinə fikir verən olacaqmı?

**"Şərq qapısı" qəzeti, 1994-cü il**

## və bu gün

## Xal-xalın bugünkü müasir mənzərəsi muxtariyyətimizin bəhrələrindəndir

*Ötən əsrin sonlarında muxtar respublikanın ağır blokada şəraitində yaşadığı məşəqqətli günlər, sərhədyanı kəndlərdə mənfur düşmənə qarşı inadlı mübarizə, ulu öndər Heydər Əliyevin o illərdə naxçıvanlılarla birlikdə olması, bu diyarı işğaldan qoruması kimi faktlar Naxçıvanın canlı salnaməsinə çevrilən "Şərq qapısı" qəzetinin tarixdən soraq verən səhifələrində bu gün də yaşamaqdadır. Mətbu orqanın səhifələrində o dövr üçün kənd sakinlərinin yuxarı orqanlara çatdırmaq istədikləri ərz-gileylər, kitabdan-kitaba salınan, ildən-ilə keçən şikayətlər, nəticəsi və reallığı olmayan arzular olduğu kimi əks edilib. Fikrimizcə, "Kəndimizin problemləri" sərlövhəli yazıda Xal-xalın timsalında bütün Naxçıvan kəndlərində üst-üstə yığışıb qalan sosial problemlərin ümumi mənzərəsi əks olunub.*

Aradan keçən 25 il ərzində nəinki Xal-xal, ümumilikdə, Naxçıvanımız fədakar əllərin qurub-yaratdığı möhtəşəm bir məkana çevrilib. Bu illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında doğma diyarımız elə bir inkişaf yolu keçdi ki, dosta sevinc, düşmənə gözdağı oldu bu yol. Muxtar respublikanın inzibati bölgüsündə kiçik bir yer tutan Xal-xal kəndi də böyüdü, müasir həyata vəsiqə aldı. O vaxt sakinləri narahat edən problemlər, yuxarı orqanlara ünvanladıqları məktublarda uzun-uzadı bəhs etdikləri qayğılar kökündən həll olundu. 600-dən çox sakin üçün isti ana qucağı, qonaqpərvər, mehriban insanların məskəni olan bu kənd 4 il bundan öncə müasir Azərbaycan kəndinə nümunə olan bir simaya qovuşdu. 2015-ci ilin sentyabr ayında kənddə Ali Məclis Sədrinin iştirakı ilə yeni sosial obyektlər – tam orta məktəb binası, müasir kənd və xidmət mərkəzləri, könüloxşayan, rahatlıq bəxş edən yol-nəqliyyat infrastrukturu istifadəyə verildi.

O vaxt giley-güzarın ana xəttində dayanan problem informasiya blokadası ilə bağlı idi. Kənd sakini Elçin Hüseynov o illərin canlı şahidlərindən biridir və həmin vaxt yaşanan çətinlikləri belə nəql edir: – Təsəvvür edin, o narahat günlərdə, torpaqlarımızda müharibə getdiyi bir vaxtda xal-xallıların heç bir yerlə əlaqəsi yox idi. Radiolar, telefonlar işləmirdi. Ümumiyyətlə, respublikada baş verən hansısa yenilikdən xəbər tutmaq üçün min bir əziyyət hesabına ya rayon mərkəzinə, ya da Naxçıvan şəhərinə üz tutmaq lazım gəlirdi. İndi isə hər evdən telefon səsi eşidilir, hərənin cibində, belə desək, 1-2 mobil telefon var. Yüzə yaxın şəxs internetdən istifadə edir. Təkcə kənd məktəbində 17 kompüter quraşdırılıb və internetə qoşulub. Hərənin evində "plazma" televizoru, kompüteri var. Mən özüm, hər gün internetdən "Şərq qapısı" qəzetini, "Nuhçıxan" İnformasiya Agentliyini izləyirəm, ölkəmizdə və muxtar respublikamızda baş verən hadisələrdən xəbərdar oluram. Sözümün canı budur ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində informasiya blokadası həmişəlik yarılıb. Son illər muxtar respublikanın kəndlərində qurulan kənd mərkəzləri bizim kimi sadə adamların işini yaman asanlaşdırıb. Bütün növ xidmətlər də bir məkanda göstərilir. İndi qəzet və jurnalları da kəndimizdəki poçt bölməsindən alır, işıq və qaz sərfiyyatı üçün yaranan borcumuzu ovuc içi boyda olan kartlar vasitəsilə ödəyirik.




*Xal-xal kənd tam orta məktəbi (bu gün)*

O vaxt yol da yox idi, varlığına vardı, amma bərbad gündə idi, heç buna yol demək olmazdı. Elektrik enerjisi 4-5 saatdan bir olurdu, olmasaydı ondan yaxşı idi, lampanın közərtisini güc-bəla ilə görürdük. Təbii qaz haqqında danışmağa dəyməzdi. Bir neçə il bundan qabaq dövlətimizin başçısı qərar verdi, vəsait ayrıldı, ustalar, iş icraçıları gəlib baxdılar və Hacıvardan Vayxır (Hacıvar-Vayxır-Sirab avtomobil yolu) kəndinədək uzanan yol yenidən qurularaq istifadəyə verildi. Bununla da təkcə biz yox, indi yoldan istifadə edən digər kəndlərin sakinləri də rahat və təhlükəsiz şəkildə mənzil başına çatırlar. Naxçıvan şəhərinə avtobuslar qrafik əsasında mütəmadi olaraq işləyir. Şəxsi avtomobillər də kifayət qədərdir. Sizi inandırım, yola çıxan kimi, necə deyərlər, "maşın düşür" və 5-10 dəqiqəyə çatırsan ünvana.

Müsahibim deyir ki, Naxçıvanın enerji təhlükəsizliyinə töhfə verən, muxtar diyarımızı enerji ixracatçısına çevirən elektrik stansiyalarından olan Günəş Elektrik Stansiyası Xalxala çox yaxın ərazidə – çayın o tayında yerləşir. Yaxşı xatirimdədir, bu mühüm strateji obyektin açılışına ölkə başçısı da gəlmişdi. Bu işləri görən zaman bir vətəndaş kimi ürəyim dağa dönür. Hərdən öz-özümə deyirəm: yaxşı ki o çətin illərdə ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşdik, onunla həmrəy olduq. Bugünkü inkişaf və tərəqqinin təməlində dahi rəhbərin müəyyən etdiyi DÜZGÜN SİYASİ YOL dayanır. Bu yolun davamçıları elə bir zəhmət, iradə, fədakar əmək, Vətən təəssübkeşliyi göstərərək Naxçıvanı qurub-yaradırlar ki, bu yurdun sakinləri, gələn qonaqlar, rəsmi şəxslər, turistlər – hər kəs heyran qalır. Qurub-yaradanlara əhsən!

### Xal-xal məktəbi bu gün

Məktəbin müəllimlərinin bir məqsədi var: Müstəqil Azərbaycanımızın gələcəyi naminə əsl vətəndaş, əsl ziyalı yetişdirmək. Sevindirici haldır ki, bunun üçün təhsil ocağında geniş imkanlar açılıb. Təvəkkül Həsənov uzun illər bu məktəbdə müəllimlik edib. Uşaqlara ilk dəfə qələm tutmağı, hərf yazmağı öyrədib. Zəhməti də hədər getməyib. Və bu zəhmət o illərdə çəkilib ki, kənd məktəbi yaman gündə idi. İndi o, kəndin mərkəzində saray kimi, imarət kimi ucalan məktəbdə çalışmasından qürur hissi keçirərək deyir: – Belə məktəbdə işləməyə nə var?! Xal-xalda təkcə bu günün yox, sabahın da məktəbi fəaliyyət göstərir. Gələcək perspektiv nəzərə alınaraq bina 192 şagird üçün nəzərdə tutulub. Məktəbdə 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana, bufet, idman zalı istifadəyə verilib, həyətdə açıq idman qurğuları quraşdırılıb. Bu il 2 şagird məktəbdən məzun olub və onların hər ikisi yüksək nəticə göstərib.

### Torpaqda izi olmayanın süfrədə üzü olmaz

Bu kiçik kənddə təsərrüfat inkişaf etdirilir, bol məhsul istehsal olunur. Əkinçi ömrünün ən məsul dövrü başlayıb, qayğılar artıb. Elin sərvəti olan taxıl biçini sürətlə aparılır. Xal-xalda az ailə tapılar ki, həyətində istixanası olmasın. Heydər Əliyev Su Anbarının sol sahil kanalı kəndin yaxınlığından keçdiyi üçün suvarma təminatı ilə bağlı olan bütün qayğılar öz həllini tapıb. Bütün bunlar isə təsərrüfat sahələrinin daha da genişləndirilməsinə, bol məhsul istehsalına rəvac verir.

*O vaxt – heç kəs heç kəsin ərizəsini oxumadığı bir zamanda xal-xallılar Babək rayonunun rəhbərliyinə, daha yuxarı qurumlara çox yazdılar-pozdular, naçar qalanlara çarə tapılmadı. Dedilər ki, səbir edin, dözün. Müstəqillik illərində isə Xal-xal kimi yüzlərlə belə kənddə həmin problemlərin həllində, işlərin icrasında QURUCU RƏHBƏR imzası var. Düzgün idarəetmə sistemi ilə Vətən torpağını dərindən sevən, onun inkişafını, insanlarının yaxşı yaşayışını hər şeydən üstün tutan, şəhər, kənd, qəsəbə, yaxın-uzaq demədən güllük-gülüstana çevrilən Naxçıvan adlı qədim məmləkət müasirliyin işığında daha əsrarəngiz, daha cəlbedici görünür.*

**Muxtar RZAZADƏ**

***Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

*Jurnalistin qeydləri*

## Şəhid anasını sevindirmək ucalığı



*Şəhidlik şərəf, qeyrət, ucalıq və qəhrəmanlıq zirvəsidir. Şəhidlik vətənpərvərliyin ən ali məqamıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki,* ***"Hər bir şəhid millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, milləti millət edən amillərdən biridir".***

Tarixən Azərbaycan xalqı Vətən müqəddəsliyini hər şeydən üstün tutmuş, igid oğullarımız yeri gəldikdə döyüşmüş, mübarizə aparmış, canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmişlər. Ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli liderimiz Heydər Əliyevin ətrafında yumruq kimi birləşən naxçıvanlılar da bu qədim diyarı məhz belə qorudular. Sədərəkdə, Şadada, Buzqovda düşmənə tutarlı cavab verdilər, onları öz yerlərində oturtdular. Şəhidlər verdik. Amma torpağımızı vermədik, Vətənimizi, mənliyimizi qoruduq, saxladıq.

Xalqımızın qəhrəmanlıq tarixindən yoğurulub gələn bir böyük dəyəri də vardır ki, bu da Vətən uğrunda canından keçənlərə, sağlamlıqlarını itirənlərə verilən qiymətdir. Şəhid ailəsinə, Vətən yolunda sağlamlığını itirənlərə göstərilən qayğının mənəvi yükü ölçüyə gəlməz. Bu ancaq vətəndaşını düşünən, onun qayğısına qalan, insan amilinin hər şeydən üstün tutulduğu, xalqla dövlətin birliyi, vəhdəti olduğu ölkədə mümkündür. Yəni AZƏRBAYCANDA.

İyulun 2-də ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 illiyi ərəfəsində dahi şəxsiyyətin adını daşıyan ilk yaşayış məntəqəsində – Sədərək rayonunun Heydərabad qəsəbəsində inşa olunmuş ilk yüksək mərtəbəli yaşayış binasının açılışı oldu. Binanın ilk sakinləri də şəhid ailəsi və Vətən qarşısında sağlamlıqlarını itirmiş şəxslərdi. Bu ilklərdən yola çıxaraq əminliklə demək olar ki, müstəqil və qüdrətli Azərbaycanın hər bir bölgəsi, hər bir sakini dövlətin diqqət və qayğısı əhatəsindədir.



Ulu öndərimiz ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq Azərbaycanın gələcək müstəqilliyinin əsaslarını yaratmış, 1969-cu il 14 iyul tarixi inkişaf və tərəqqi salnaməsinə çevrilmiş, iqtisadi inkişaf və milli-mənəvi dəyərlərə qayıdış xalqımızın müstəqil yaşaması üçün mühüm potensial formalaşdırmışdır. Bu siyasi xətdən uzaqlaşmağın gətirdiyi 20 Yanvar, Xocalı faciələri, torpaqlarımızın işğal olunması xalqda bir daha əminlik yaratdı ki, Heydər Əliyev siyasi xətti Azərbaycanın dünəni olduğu kimi, həm də bu günü və gələcəyidir. Elə bu səbəbdən də Milli Qurtuluşdan başlanan yol müstəqilliyimizi möhkəmləndirdi, iqtisadi inkişaf və sosial islahatların əhatə dairəsi xeyli genişləndi.

Bu gün Azərbaycanda xalq dövlətin, dövlət də xalqın dayağıdır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların hədəfi də dövlətimizin daha da qüdrətlənməsi, xalqımızın rahat və firavan yaşayışıdır. Bu, şəhərdə də, ucqar dağ kəndində də, düşmənlə bir addımlıqdakı sərhəd yaşayış məntəqələrində də belədir. Sədərəkdə istifadəyə verilən yeni yaşayış binası, təqdim olunan mənzillər bunu bir daha təsdiq etdi.

Bu gün şəhidlərimizin ruhu rahatdır.

Birincisi, ona görə rahatdır ki, qüdrətli ordumuz var. Vətənimiz etibarlı müdafiə olunur. Vaxtilə ulu öndərin Naxçıvandan başlatdığı milli ordu quruculuğu strategiyasının bəhrəsi bugünkü qüdrətli və güclü Azərbaycan Ordusudur. Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər, Əlahiddə Ümumqoşun Ordunun yaranması, müasir hərbi infrastrukturun formalaşdırılması, silah və texnika təminatı qədim diyarda müdafiə təhlükəsizliyini tam təmin edib. Sədərəkdən tutmuş Soyuq döyüş bölgəsinə, Batabata, Ləkətağa, Göygölə, Keçəldağa, Günnütə, Qızılqayaya qədər bütün zirvələrdə etibarlı müdafiə təminatı yaradılıb. Əlahiddə Ümumqoşun Ordunun ilk dəfə bundan əvvəl həyata keçirdiyi uğurlu Günnüt əməliyyatı yüksək peşəkarlığın və döyüş qabiliyyətinin nəticəsi kimi tarixə yazıldı. Ötən ay keçirilən Azərbaycan-Türkiyə birgə döyüş atışlı hərbi təlimindən çıxan nəticə isə blokada şəraitində olmasına baxmayaraq, Naxçıvandakı ordu, birləşmə və hissələrin nəinki müdafiə, hətta istənilən hücum əməliyyatını yüksək səviyyədə icra etməyə hazır olduğunu göstərdi.

İkincisi, şəhidlərin ruhu ona görə rahatdır ki, bu gün ölkəmizdə sabitlik, inkişaf və tərəqqi var. Vaxtilə bu dəyərlər üçün canlarını qurban verən şəhidlərin övladları sabitlikdə, təhlükəsiz şəraitdə, əmin-amanlıqda yaşayırlar. Dağılan yaşayış məntəqələrinin yerində abad kəndlər, qəsəbələr, şəhərlər salınıb. Elə SƏDƏRƏK kimi.

Üçüncüsü, şəhidlərin ruhu həm də ona görə rahatdır ki, onların ailələri dövlətin himayəsindədir. Şəhid ailələrinə birdəfəlik ödənişlərin, müharibə iştirakçılarına təqaüdlərin verilməsi, onların mənzillərlə təmin olunması mühüm sosial tədbir olmaqla yanaşı, bir o qədər də mənəvi yükü olan hadisədir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iyulun 2-də şəhid Orxan İbrahimovun anasına vaxtilə övladının şəhidlik zirvəsinə yüksəldiyi torpaqda – sərhəd bölgəsi Sədərəkdə mənzil təqdim etməsi, şəhid ailəsini mənzillə sevindirməsi isə RƏHBƏR UCALIĞI, XALQ və VƏTƏN SEVGİSİNİN daha bir ifadəsidir.*

**Ülvi HÜSEYNLİ**
**jurnalist**

*Son vaxtlar angioqrafiya və stent üçün xəstəxanalara müraciət edənlərin sayı artır. Bəs biz bu haqda nə bilirik? Xəstəyə angioqrafiya etmədən stent taxılacağını əvvəlcədən söyləmək mümkündürmü? Bəs tıxanmış damarın stentlə açılmasından sonra stentin yenidən tıxanmayacağına zəmanət varmı? Həmin stent keyfiyyətini nə qədər qoruyub saxlaya bilər? Muxtar respublikamızda angioqrafiya üsulu ilə müayinə və müalicə üçün hansı şərait yaradılıb?*

## Angioqrafiyada müasir tibbi avadanlıqlardan istifadə edilir

Bu barədə ətraflı məlumat almaq üçün Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkimi, kardioloq-angioqraf, bu sahə üzrə Türkiyə Respublikasının müxtəlif tibb universitetlərində xüsusi kurs keçmiş Nail Mehbalıyevlə həmsöhbət olduq. O bildirdi ki, bədənimizdə lazımi qan və oksigenin bütün orqanlara çatdırılmasında xüsusi rol oynayan ürəyimiz bəzən müxtəlif səbəblərdən bu funksiyanı yerinə yetirə bilmir. Bu da ürəyin özündə və ya digər orqanlarda bir sıra dəyişikliklərə səbəb olur, xəstədə müəyyən şikayətlər yaradır. Ağrı, təngnəfəslik, yorğunluq və halsızlıq, ürəkdə döyüntü, ayaqlarda və bədəndə şiş əmələ gəlməsi, öskürək, özündəngetmə (senkop), hıçqırıq, udma çətinliyi, mədə, baş və boyun ağrıları, göyərmə ürək xəstəliklərinin ilkin əlamətləridir.





Həkim qeyd edir ki, döş qəfəsində yaranan ağrıların səbəblərini dəqiq öyrənmək üçün xəstəyə bir neçə müayinə aparılması məsləhət görülür ki, bunlardan biri də koronar angioqrafiyadır.

Həkim bu haqda ətraflı məlumat verərək bildirdi ki, angioqrafiya diaqnostik metod olub, hər hansı bir orqanın damarlarında tıxanmanın olub-olmadığını göstərmək məqsədilə edilir. Ürək damarlarındakı tıxanmanı müəyyənləşdirmək məqsədilə edilən angioqrafiyaya koronar angioqrafiya deyilir. Angioqrafiya qan damarlarının rentgenoloji müayinəsidir. Bu müayinə zamanı kontrast maddədən istifadə edilir ki, bu maddə allergik xüsusiyyətlərə malikdir. Buna görə də həkim xəstədən allergik reaksiyalara meyilli olub-olmaması haqqında əvvəlcədən mütləq məlumat toplamalıdır ki, angioqrafiya zamanı yarana biləcək riskləri vaxtında aradan qaldıra bilsin.

Həkim onu da qeyd edir ki, döş qəfəsindəki hər ağrıya görə angioqrafiya etmək yanlışdır. Çünki belə ağrılar və ya təngnəfəslik şikayəti heç də hər zaman ürək mənşəli olmur. Müraciət edən xəstələr əvvəlcə ətraflı şəkildə müayinə edilməli, onun şikayətləri diqqətlə dinlənilməli və damar daralması baxımından risk faktorları ətraflı şəkildə öyrənilməlidir. Döş qəfəsində ağrı və ya təngnəfəslik şikayəti olan bir xəstəyə ətraflı müayinə və aparılan bir neçə analiz (stress testi, elektrokardioqrafiya, exokardioqrafiya və sair) nəticəsində ürək-damar daralması şübhəsi yaranarsa, o zaman angioqrafiya edilməlidir. Bu müayinə həkimlərə xəstənin damarlarının vəziyyətini, orada olan pozulmaları dəqiq qiymətləndirməyə imkan verir. Əgər xəstənin ürək damarlarında daralma varsa, tıxanan damarları açmaq üçün stent qoyulması məsləhət görülür.

Nail Mehbalıyevin sözlərinə görə, stentlər xüsusi metallardan və ya polimerlərdən hazırlanmış teldən ibarət, iki ucu açıq, silindr şəklində olan bir qəfəsdir. Qırılma ehtimalı çox azdır. Stentlərin dərmanlı və dərmansız formaları vardır. Dərmanlı stentlərin digərlərindən fərqi üstünün hüceyrə çoxalmasını əngəlləyən xüsusi dərmanlarla örtülməsidir. Bu dərmanlar taxıldıqdan sonra stentin tıxanma və ya daralma ehtimalını orta və ya uzun müddətə azaldır. Bu stentlərin normal (dərmansız stentlər) stentlərə nisbətən tıxanma ehtimalı daha azdır. Buna görə də daralmış ürək damarlarını açmaq üçün daha çox dərmanlı stentlərdən istifadə olunur.

Nail həkim əməliyyatdan sonrakı dövrdə xəstənin hansı qaydalara riayət etməsi haqqında da danışaraq bildirdi ki, xəstə pəhriz saxlamalı, qidalanma zamanı lazımlı protein və vitaminlərlə zəngin yeməklərə üstünlük verməlidir. Hər yeməkdə duzsuz şorba olmalıdır. Xəstənin mədə qıcqırması varsa, yeməkdə ədviyyat istifadə edilməməli, yemək porsiyaları az və 2-3 növ olmalıdır. Az yağlı qaynadılmış ət, toyuq, yumurta, duzsuz pendir, zeytun, balıq da yemək olar. Həkimin məsləhət etdiyi yemək menyusundan kənara çıxmamalı, xolestrol səviyyəsi normal olmalıdır, bol su içilməli, təmiz və açıq havada olmalı, yürüş edilməlidir. Stent taxıldıqdan sonra xəstənin müntəzəm müalicə almaması da stentin tıxanma riskini artırır. Qan damarlarının daralmasının və ya tıxanmasının qarşısını almaq, növbəti tıxanmaların olmaması üçün dərmanların qəbulu şərtdir. Bunlardan başqa, xəstə yaxşılaşana qədər ağır hərəkətlərdən çəkinməli və idmandan uzaq durmalı, ani hərəkətlər etməməlidir.

Həkim-kardioloq deyir ki, bu ilin may ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə mərkəzdə yeni angioqrafiya aparatı quraşdırılıb. Ürək-damar sistemi xəstəliklərinin erkən diaqnostikasında əvəzsiz rolu olan yeni angioqrafiya aparatının istifadəyə verilməsi muxtar respublikada səhiyyənin inkişafına göstərilən qayğının davamıdır. Həkim yeni aparatın üstünlüklərindən danışır:

– Almaniya istehsalı "SİEMENS ARTİS ZEE" markalı döşəmətipli müasir angioqrafiya aparatının əməliyyat stolunda, eyni zamanda angio və açıq ürək müdaxiləsi etmək mümkündür. Yeni cihaz əvvəlkindən fərqli olaraq 3-D proqramlıdır. Haçalanmış damarlara 3-D formatda görüntü altında müdaxilə etmək mümkündür. Xüsusilə böyrək çatışmazlığı və kontrast maddəyə allergiyası olan xəstələrdə az kontrastla müayinə və müdaxilə etmək, beyin damarlarının angioqrafiyası və müdaxiləsi, ürək və periferik damarların angioqrafiyası, invaziv angioqrafiya və istənilən damarlara stent qoyulması, müvəqqəti və qalıcı kardiostimulyator yerləşdirilməsi mümkündür. Artıq cihazla bir neçə xəstədə angioqrafiya müdaxiləsi aparılıb, stent qoyulub.

Mərkəzdə Naxçıvan şəhər sakini Qiymət Bayramova, Sədərək rayon sakini Vidadi Rzazadə ilə də həmsöhbət olduq. Bildirdilər ki, doğma diyarımızın səhiyyə ocaqlarında çalışan peşəkar həkimlər buradakı müasir tibbi aparatın imkanlarından istifadə etməklə onları yenidən öz sağlamlıqlarına qovuşdurublar. Burada müalicə olunan xəstələr yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq etdilər.

Muxtar respublikanın səhiyyə ocaqlarında yaradılan şərait insan amilinə verilən qiymətdir. Diyarımızın müxtəlif profilli xəstəxanalarında dünyanın inkişaf etmiş ölkələrinin səhiyyə ocaqlarına istifadə olunan tibbi avadanlıqlar mövcuddur. Buna görə də əvvəllər kənarda şəfa axtaran sakinlər indi sağlamlıqlarını öz xəstəxanalarımıza, həkimlərimizə əmanət edirlər. Nəticə isə göz qabağındadır.

**Ramiyyə ƏKBƏROVA**

## Yığıncaq keçirilib

*Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində keçirilən yığıncağı idarənin rəisi Mehman Məmmədov açaraq geniş məruzə edib.*

Vurğulanıb ki, cari ilin birinci yarısında qarşıya qoyulmuş vəzifə və tapşırıqların icrası və illik iş planlarından irəli gələn vəzifələrin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi və tabeliyindəki Dövlət Arxiv təşkilatlarının daim diqqət mərkəzində olub. Bu ilin yanvar ayında istifadəyə verilmiş Şahbuz Rayon Dövlət Arxivi üçün yaradılan yüksək şərait bu sahəyə göstərilən diqqət və qayğının daha bir nümunəsidir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2018-ci il aprelin 12-dən başlayaraq arxiv işinin mövcud qanunvericiliyə və təlimatlara uyğun olaraq qurulması, sənədlərin və kitabların ekspertizasının aparılması, sənədlərin dövrə və mövzuya görə, eləcə də təşkilatlar üzrə yenidən qruplaşdırılması, yararsız vəziyyətə düşmüş sənədlərin, qəzetlərin və fotomaterialların bərpa olunması bu ilin aprel ayında başa çatdırılıb. Həmçinin kitabxanada 1653 adda kitab və jurnal kitabxana qaydalarına uyğun olaraq rəflərə yığılıb, ekspertizadan keçirilərək siyasi əhəmiyyətini itirmiş və yararsız halda olan 601 adda 711 nüsxə kitab və 40 qovluq qəzet məhv edilib.

Mehman Məmmədov Dövlət Arxivinin 2019-cu il illik iş planında kağız əsaslı sənədlərin bərpa edilməsi, sənədlərin tikilməsi və cildlənməsi, kağız əsaslı sənədlərin mövcudluğu və vəziyyətinin yoxlanılması, sənədlərin elektron daşıyıcılara köçürülməsi və təsviri işlərinin aparılması, həmçinin digər istiqamətlərdə görülən işlər barədə ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, bu ilin may ayında tələbələrin Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində təcrübə keçmələri üçün lazımi şərait yaradılıb, tələbələr arxiv işi haqqında ətraflı məlumatlandırılıblar.

Sonda məruzə ətrafında çıxışlar olub. Çıxışlarda 2019-cu ilin ilk 6 ayı ərzində görülmüş işlər və qarşıda duran vəzifələr barədə danışılıb.

**Gülcamal TAHİROVA**

# Muxtar respublika idmançılarına daha bir töhfə



*Bu gün Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin tövsiyələri əsas tutularaq gənc nəslin sağlam yetişdirilməsi başlıca amil kimi götürülür, idman və idmançılara xüsusi diqqət və qayğı ilə yanaşılır, müasir idman infrastrukturu yaradılır, mövcud idman obyekt və qurğularından səmərəli istifadə diqqətdə saxlanılır. Görülən bu işlərin davamı kimi Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurularaq sakinlərin ixtiyarına verilib. Biz də yenidənqurmadan sonra idmançılara yaradılan şərait və keçirilən məşq prosesləri ilə tanış olmaq üçün kompleksə yollandıq.*

İşıqlı, təmiz, sakit, hər cür şəraitlə təmin edilmiş kompleksdə ilk olaraq iki əcnəbi vətəndaş diqqətimizi cəlb edir. Söhbət əsnasında öyrənirik ki, onlar kompleksin zalında oynanılan mini-futbol matçını izləməyə gəliblər. Kompleksin direktoru Ramil Hacı



da bizə yaxınlaşır və əcnəbi qonaqların artıq ikinci gündür ki, gəlib burada futbola baxdıqlarını bildirir. Keçirilən görüş mini-futbol üzrə muxtar respublika birinciliyi olduğu üçün elə kompleksin direktoru ilə söhbətimizə də futbol yarışı haqqında başlayırıq. Ramil müəllim deyir ki, kompleksdə həftənin bütün günləri mini-futbol üzrə oyunlar keçirilir. Burada təkcə futbola həvəsi olan gənclər yox, eyni zamanda dövlət qulluqçuları arasında da oyunlar oynanılır.

Kompleksin direktoru bizi buradakı idman salonları, məşq otaqları ilə tanış edərək bütün zəruri infrastrukturun yenilənməsi, tavan və döşəmələrin dəyişdirilməsi, işıqlandırma, havalandırma və istilik sistemlərinin yenidən qurulması haqqında məlumat verir.

Öyrənirik ki, kompleksin hər biri 220 tamaşaçı yeri olan iki universal salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Belə komplekslərin yaradılması muxtar respublikanın idman nüfuzunu yüksəltməklə yanaşı, şəhər və rayonlarda, kəndlərdə yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensiallarının üzə çıxarılması və ümumilikdə, idmanın kütləviliyinin təmin edilməsində mühüm rol oynayır. Bəhs etdiyimiz kompleksin mini-futbol, voleybol, basketbol və trenajor zallarında da idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. İki idman zalında güləş, karate, boks və digər idman növləri üzrə yarış və məşqlərin keçirilməsi mümkündür. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Yarış nəticələrinin göstərilməsi üçün zəruri elektron məlumat lövhəsi qurulub. Kompleksdə idman ləvazimatlarının satış bölməsi və bufet istifadəyə verilib, iş, soyunub-geyinmə və digər xidməti otaqlarda lazımi şərait yaradılıb.

Müsahibim onu da vurğulayır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Olimpiya İdman Kompleksində görülən işlərlə tanışlıq zamanı kompleksin imkanlarından səmərəli istifadə olunması və yaradılan şəraitin qorunub saxlanılması barədə tapşırıqlar verib. Bu gün həmin tapşırıqlara ciddi əməl olunur.

Kompleksin direktoru onu da diqqətə çatdırdı ki, bir çox idman federasiyaları ölkə və beynəlxalq səviyyəli yarışlarını məhz burada keçirir. Eyni zamanda təlim-məşq toplanışlarının da bu kompleksdə təşkil edilməsi muxtar respublikada idmana olan marağı xeyli artırıb. Buraya gələn qonaqlara hər cür qayğı və xidmət göstərilir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi də mütəmadi olaraq kompleksin fəaliyyəti ilə maraqlanır, lazımi tapşırıqlar vaxtında yerinə yetirilir. Biz də, öz növbəmizdə, dövlətimizin adını daim yüksək tutmaq üçün çalışır, bayrağımızın ən mötəbər kürsülərdə dalğalanması istiqamətində işlər görür, göstərilən qayğıdan bəhrələnirik.

Muxtar respublika rəhbərinin gərgin əməyi sayəsində bu gün Naxçıvan ölkənin idman mərkəzlərindən birinə çevrilib, bu sahədə mühüm uğurlara imza atılıb. Bunun nəticəsidir ki, cari ildə kompleks bir çox ölkədaxili və beynəlxalq turnirlərə, yarışlara ev sahibliyi edib. Həmçinin idmanın maddi-texniki bazasının gücləndirilməsi, müxtəlif idman növlərinin kütləviləşməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Bu gün muxtar respublikada idmanın zəngin ənənələrini davam etdirməyə qadir olan bir çox beynəlxalq dərəcəli idman ustası, məşqçilər nəsli yetişməkdədir. Gənclər və İdman Nazirliyinin, yerli idman federasiyalarının məqsədyönlü, səmərəli fəaliyyəti nəticəsində bu gün idman özünün yeni inkişaf mərhələsinə qədəm qoyub.

Kompleksdə yaradılan şərait daha çox məşqçilərin və idmançıların sevincinə səbəb olub. Kikboksinq məşqləri keçən məşqçi-



müəllim Natiq Yaqubov bildirdi ki, onların məşq etmələri üçün hər bir imkan yaradılıb. Həftədə üç dəfə burada məşqlər keçirilir və uşaqların sayı gündən-günə artmaqdadır. Buna səbəb isə yaradılan gözəl şəraitdir. Bu imkanları məşqçilər, idmançılar üçün yaradan muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk.

Uzun illərdir, sərbəst güləşlə məşğul olan David Yaqubovun fikrincə, kompleksin yenilənməsi idmana göstərilən diqqətin bariz nümunəsidir. Bizim üçün bu cür şərait yaradılır, biz də, öz növbəmizdə, keçirilən yarışlarda uğur qazanıb muxtar respublikanın idman ənənələrini layiqincə davam etdirəcəyik.

Ramin Hacı sonda onu da vurğuladı ki, kompleksin qapıları təkcə peşəkar idmançılara yox, hər bir gəncin üzünə açıqdır. Gəncləri idmana cəlb etmək, onları zərərli vərdişlərdən uzaq tutmaq və sağlam gənclik yetişdirmək borcumuzdur. Belə idman komplekslərinin istifadəyə verilməsi isə Naxçıvanda idmana olan marağı gündən-günə artırır. Yaradılan bu şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk.

**✍ Ceyhun MƏMMƏDOV**

# Tələbələrə kitab hədiyyəsi...



Xəbər verdiyimiz kimi, mart ayında Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illik yubileyi münasibətilə Naxçıvan xanlığının tarixindən bəhs olunan "Ehsan xan Kəngərli" tamaşasının premyerasında iştirak etmək üçün tarixi əsərin müəllifi Xaqani Əliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, teatrşünas Zülfiyyə Eldarqızı və Əməkdar artist Sərvər Əliyev Naxçıvanda olublar.

Qonaqlar səfər çərçivəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində təhsil alan tələbələrlə görüşüb onlar üçün zəruri olan əlavə dərs vəsaitləri göndərməyi qərara alıblar.

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin məsul işçisi, universitetin müəllimi, Xalq artisti Kamran Quliyevdən həmin kitabları tələbələrə çatdırmağı xahiş edən ziyalılar, gənclərə məktub da ünvanlayıblar. Məktubda deyilir:

"Əziz tələbələr! Kitab tədris materialı olaraq maarifçilik yükünü daşımaqla, keçmiş və müasir mədəniyyət düşüncəsini birləşdirməklə, yeni nəslin vətənpərvərlik tərbiyəsini, millimənəvi özünüdərki zənginləşdirir və daha da möhkəmləndirir. Kitab oxuyarkən axtardığımız suallara cavablar tapırıq, təfəkkürümüz qidalanıb genişlənir. Elm mənbəyi olan kitab fərd kimi yox, məhz şəxs kimi yetişməyimizə kömək edir.

Gəncliyimizin savadlı böyüməsi üçün valideynlər, müəllimlər, ziyalılar, ədiblər və dövlət xadimlərimiz öz məsləhət və qayğılarını heç vaxt əsirgəmirlər. Bunun bariz nümunəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamını göstərə bilərik. Gənc nəslin şəxsiyyət kimi yetişməsinə kömək edəcək bu sərəncam kitab oxumağa valideyn çağırışıdır. Azərbaycan gəncində vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşmasına yardım edəcək mükəmməl və müdrik Ağsaqqal məsləhətidir. Yalnız insana məxsus olan, heç vaxt köhnəlməyən daxili və zahiri hissləri öz vərəqlərində yaşadan kitablara verilən yüksək ziyalı qiymət və dəyəridir.

Əziz tələbələr! Çox çətin, xüsusi istedad, bacarıq və zəhmət tələb edən sənət seçdiyinizə görə, cəsarətinizə heyran olmamaq mümkün deyil. Məqsədinizə çatmaq, Vətənə, mədəniyyətimizə layiqli övlad kimi yetişməyiniz üçün böyüklərin məsləhətlərinə əməl etməli, usanmadan kitab oxumalı və savadlı olmalısınız. İnanırıq ki, seçdiyiniz sənətin qaranlıq məqamlarını anlamaqda, yaxşı mütəxəssis kimi yetişməkdə oxunması vacib olan, hədiyyə kimi göndərdiyimiz bu dərsliklər yardımçınız olacaqdır. Çox istərdik ki, onları sevə-sevə, düşünərək, anlayaraq oxuyasınız.

Gələcəyimizin sahibi olacaq siz gənclərə, kövrək addımlar atmağa başladığınız həyat yolunda uğurlar və müvəffəqiyyətlər arzulayırıq".

Qeyd edək ki, hədiyyə olunan 30-a yaxın kitab tələbələrin istifadəsi üçün Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Teatr və mədəniyyətşünaslıq kafedrasına verilib.

**Səadət ƏLİYEVA**

# Səyyar baytarlıq xidməti

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti yaylaqlarda səyyar baytarlıq xidməti təşkil edib. Lazımi baytarlıq preparatları, vaksinlər, müalicəvi dərman və dezinfeksiya vasitələri ilə təmin olunmuş səyyar baytarlıq xidməti Şahbuz rayonunun Keçəldağ yaylağının Qanlıgöl, Taxca yurd, Qıvraq, Xok, Qarabağlar, Dəmirçi, Əyri qar, Xanlıqlar obalarında olub.

Muxtar respublikanın Dövlət Baytarlıq Xidmətinin rəisi Vəli Novruzov sahibkarlarla görüşüb, onlara göstərilən baytarlıq xidmətinin təşkili, eyni zamanda yaylaqlarda epizootik vəziyyət barədə məlumat alıb. Sahibkarlar baytarlıq xidmətindən razılıq edib, heyvanlar arasında heç bir xəstəlik olmadığını bildiriblər. Vəli Novruzov yaylaq şəraitində saxlanılan heyvanlarda aparılan profilaktik peyvəndləmə işləri, göstərilən baytarlıq xidməti ilə əlaqədar baytar həkimlərə tövsiyələr verib.

Yaylaqlarda xırdabuynuzlu heyvanlar arasında bruselyoz xəstəliyinə qarşı "Rev – 1" vaksini ilə peyvəndləmə və heyvanların yataq yerlərində dezinfeksiya tədbirləri həyata keçirilib, maarifləndirmə işləri aparılıb, bukletlər təqdim olunub.

Növbəti xidmət isə Ağbulaq obasında aparılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin iyun ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4377 | 323,9 | 323,9 | 100,0 |
| 2. | Şərur rayonu | 2502 | 177,7 | 177,7 | 100,0 |
| 3. | Babək rayonu | 1879 | 133,4 | 133,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 1351 | 95,2 | 95,2 | 100,0 |
| 5. | Culfa rayonu | 1412 | 99,8 | 99,8 | 100,0 |
| 6. | Kəngərli rayonu | 423 | 30,0 | 30,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 255 | 18,1 | 18,1 | 100,0 |
| 8. | Sədərək rayonu | 227 | 16,1 | 16,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 25908 | 2331,8 | 2409,7 | 103,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **38334** | **3226,0** | **3303,9** | **102,4** |

**Qeyd:** İyun ayında texniki itki nəzərə alınmaqla daxil olan 38 milyon 334 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 226 min manat olmuş, cəmi 3 milyon 303 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 102,4 faizini təşkil edir.

***İtmişdir***

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Mahmudov Niftalı İzzət oğluna məxsus yükləyiciyə verilmiş TS-035842 nömrəli Qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Ramazanov Xəqani Məcid oğlunun adına verilmiş JN-368A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 442